

*Məzahir ƏHMƏDZADƏ*

# FESTİVALLARIN, BAYRAMLARIN YARAŞIĞI - GÖZƏL ZAQATALA...

## Zaqatalada keçirilən II Beynəlxalq fındıq, qoz, şabalıd festivalından

## REPORTAJ

**...Bu şəhərin hər səhəri sanki hansısa özəl bir günə, hansısa tarixi hadisənin ildönümünə, hansısa bayrama açılır. Küçə və meydanların səliqəsi, park və bağların gözəlliyi, insanların təbəssümlü baxışları bu şəhərin yaşanan hər gününü əsl bayram ovqatına kökləyir. Bu gözəl payız səhəri də belədir. Fərq bu ovqatın bir qədər də yüksəkliyi, hər tərəfdən, hər büsatdan sevinc doğurmasıdır. Vətənimizin gözəllik rəmzinə çevrilmiş Zaqatalanın adına nə qədər epitetlər söylənilir həm də. Ən yaxşı tütünün, ən yaxşı qozun, fındığın, şabalıdın vətəni "Qızıl güllər" diyarı... Bu gün burada II Beynəlxalq fındıq, qoz, şabalıd festivalı başlanır. "Qızıl güllər" diyarının da bayram ovqatı, bayram əhval-ruhiyyəsi elə bu səbəbdən aşıb-daşır, hamıya, respublikanın çox yerlərindən gələn qonaqlara, xarici ölkə vətəndaşlarına, turistlərə bolluca sevinc bəxş edir.**

Həqiqətən daim nikbin əhval-ruhiyyənin hökm sürdüyü bölgələrdən biridir gözəl Zaqatala! Bu şəhərin, bu rayonun zəhmətsevər və qədirbilən sakinləri dövlətimizin qayğısına cavab olaraq bütün sahələrdə uğurlar qazanmağa, vətənə tövhələr verməyə çalışırlar. Bu səbəbdəndir ki, istər kənd təsərrüfatının aparıcı bölmələrində, istərsə də sənaye, tikinti, xidmət işlərində davamlı inkişaf təmin olunur. Ən vacib məqamlardan biri də şəhərin modern inkişafı, gözəlliyi ilə yanaşı, qəsəbə və kəndlərin də hərtərəfli müasirləşməsidir. Zaqatala sakinləri və rayon rəhbərliyi bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həmişə minnətdardır. Cənab Prezidentin də Zaqatala və zaqatalalılar haqqında söylədiyi dəyərli fikirlər onları həmişə ruhlandırır, yeni-yeni uğurlara səsləyir: " Zaqatala Azərbaycanın çox gözəl guşəsidir. Burada gözəl təbiət, təbii şərait var, gözəl, zəhmətkeş insanlar yaşayırlar...".

Təcrübəli dövlət məmuru, Zaqatala camaatının təkcə rəhbəri deyil, həm də dostu, qardaşı, sirdaşı olan Mübariz Əhmədzadə rayondakı bütün məsələlərə kollegial, prinsipial və hədsiz dərəcədə səmimi yanaşması ilə böyük nüfuz, hörmət və rəğbət qazanaraq ölkə rəhbərliyinin də yüksək etimadını doğruldur. Nümunəvi idarəetmə üslubu, xalqa, vətənə xidmətin ən üstün çalarları onun və başçılıq etdiyi komandasının həyat devizidir. Belə olanda bu bayramlar, bu festivallar da çox təmtəraqlı, çox şirin görünür - insanların halal haqqı kimi !










... Zaqatalalılar, qonaqlar, bütün festival iştirakçıları şəhər boyu küçələrdən keçib Dədə Qorqud meydanına, ətrafdakı genişliklərə toplaşır, salamlaşır, təbrikləşirlər. Hamının üz-gözündə bir təbəssüm, sevinc və iftixar hissi yaşanır. Bütün şəhər bayram libasındadır. Sanki dağların arxasından boylanan günəş də bu büsata sevinir, qızılı telləri ilə insanların, çinar, qovaq və cökə ağaclarının ruhunu oxşayır, ətrafa, bütün şəhərə nur saçır.

... Ancaq sonbahar da özünü göstərir. Orda-burda gəzişən buludlar pusqudan qəfil çıxırmış kimi birləşərək səmanı bozumtul-qara rəngə boyayır, yağış yağdırırlar. Heç kim bu yağışa görə kefini pozmur. Allahın bir tütfü sayırlar bayram iştirakçıları bu nur damcıları...

... Festivalın hörmətli qonaqları şəhərin Heydər Əliyev parkının önündə qarşılanırlar.

Ulu Öndərin abidəsi gül-çiçək dəstələri ilə ziyarət olunur.

Zaqatala Heydər Əliyev Mərkəzindəki bölmə və güşələrə də maraq böyükdür. Buradakı eksponatların bəziləri orijinallığı ilə diqqəti daha çox cəlb edir.

Qonaqların Zaqatala Bölgə Təcrübə Stansiyasının "Pərzivan" ərazisindəki fındıq bağlarına, "Karaca fındıq" MMC-nin fındıq emalı zavoduna səfər və baxışlar da qonaqları məmnun edir.

Beynəlxalq fındıq, qoz, şabalıd festivalının açılışı Dədə Qorqud meydanında böyük izdihamla başlayır və davam edir.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə festivalda iştirak edən səfirliklərin rəhbərlərini və nümayəndələrini, nazirləri, millət vəkillərini, digər dövlət məmurlarını, xarici ölkələrdən gəlmiş qonaqları, bütün festival iştirakçılarını salamlayaraq çıxışında ürək sözlərini bildirir:

- Hörmətli qonaqlar, əziz zaqatalalılar! İcazə verin əvvəlcə sizləri salamlayım və bu gün Qızıl güllər diyarı Zaqatala rayonunda təşkil edilən II Beynəlxalq fındıq, qoz, şabalıd festivalına xoş gəlmişsiniz deyim.

Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişaf edir. Sevindirici haldır ki, bu inkişaf bütün sahələri və Respublikamızın bütün regionlarını əhatə edir. 2004-cü ildən həyata keçirilən və regionların inkişafını özündə ehtiva edən Dövlət Proqramlarının yüksək səviyyədə icra olunması ölkəmizin ümumi iqtisadi gücünü artırmaqla yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin bərpasına, yeni resurslardan istifadənin səmərəsinin artırılmasına, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasına yol açmış, görülən işlər əhalinin rifahının daha da yüksəlməsinə gətirib çıxarmışdır.

Ölkəmizdə aqrar sektorun inkişafı həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Kənd təsərrüfatında məhsul istehsalının artırılması həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də ölkənin ixrac potensialının gücləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir. İxrac edilən kənd təsərrüfatı məhsulları arasında fındıq ikinci yerdədir.

Fındıqçılıq qeyri-neft sektoru üzrə ölkəmizə valyuta gətirən əsas sahələrdən biridir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, Azərbaycan fındıq istehsalı üzrə dünyada üçüncü ölkədir. Respublikamızda ildə təqribən 50 min ton fındıq istehsal olunur.

Azərbaycanda fındıq istehsalının böyük hissəsi Zaqatala rayonunun payına düşür. Zaqatala bu gün raspublikamızda ən sürətlə inkişaf edən rayonlardan biridir. Rayonda fındıqçılığın çox böyük potensialı var.

... Prezident İlham Əliyevin Kənd təsərrüfatının ixrac potensialı yüksək sahələrindən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqların icrasını təmin etmək məqsədilə son illər Zaqatala rayonunda çox işlər görülmüş, fındıq bağlarının ümumi sahəsi 4 il ərzində 9575 hektardan 19760 hektara çatdırılmış, qoz və şabalıd sahələri genişləndirilmişdir. Ötən il Zaqatalanın emal müəssisələri tərəfindən 72 milyon manat dəyərində fındıq məhsulu ixrac olunub. Xarici bazarlarda fındığa olan tələbat və onun dəyərli olması, həmçinin nəqliyyata və uzun müddət saxlanılmağa davamlılığı rayonumuzda əhali tərəfinfən yeni fındıq bağlarının əkilməsinə və kifayət qədər fındıq emalı ilə məşğul olan müəssisələrin yaranmasına səbəb olmuşdur.

Rayonda "Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosasiyası" İctimai Birliyi təsis edilmişdir.

Keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonun iqtisadiyyatı daha da inkişaf etmiş, əhalinin yaşayış səviyyəsi yüksəlmişdir. Məhz bu inkişafın təməlində isə cənab İlham Əliyevin apardığı siyasət dayanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rayonumuza 8 dəfə səfər etmiş, ölkə rəhbərinin hər bir səfəri Zaqatala rayonunun inkişafına, yüksəlişinə səbəb olmuşdur. Bu gün rayonumuzda II Beynəlxalq fındıq, qoz və şabalıd festivalı keçirilir. Mən bu gözəl gün münasibətilə hamını təbrik edir, sizlərə xoş və mənalı istirahət arzulayıram...

Sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov, İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Mədəniyyət nazirliyinin nümayəndəsi Seymur Həsənov və başqaları çıxır edərək festival iştirakçılarını bayram münasibəti ilə təbrik edirlər.

... Milli rəqslər, rəngarəng musiqi nömrələri, mahnılar bir-birini əvəz edir. Dədə Qorqud meydanında festivalı rəmzləşdirən onlarla güşədə yüzlərlə, bəlkə daha çoxeksponatı qonaqlar heyranlıqla izləyir, fotolar çəkdirirlər. Festivalın gedişi elə ssenariləşdirilib ki, bunları ilk dəfə görənlər təəssüratlarını bölüşərkən sanki nağıllar aləminə düşdüklərini də dilə gətirirlər.

Belə məqamları heç mən özüm də bu reportajda təsvir etmək imkanında deyiləm. Görək, mümkün fotolarla nəyəsə nail ola bilərikmi...

...Fındıq, qoz və şabalıdın müxtəlif növlərinin nümayişi, bu meyvələrdən hazırlanan müxtəlif məmulatlar, rəsm və əl işləri sərgiləri, tətbiqi sənəd nümunələri, fındıq emalı və ixracı ilə məşğul olan müəssisələrin istehsal etdiyi məhsullar, keçirilən müsabiqələr, idmançıların nümunəvi çıxışları, satış yarmarkalarının qələbəliyi... daha nələr...

**Festival beləcə davam edir. Axşama doğrudur. Birazdan Heydər Əliyev parkında təntənəli bayram konserti başlayacaq...**







